## Vergi orqanlarının fəaliyyəti müzakirə edilmişdir

Cari ilin ilk yarısında respublikada qeyri-neft-qaz sektorunda ümumi daxili məhsul və adambaşına düşən gəlirlər artmış, Vergilər Nazirliyi tərəfindən proqnozlara 116% əməl olunmuşdur

Vergilər Nazirliyinin ərazi vergi idarələrinin 2012-ci ilin birinci yarısı üzrə fəaliyyətinin yekunları geniş müzakirə olunur.

İyul ayının 17-də Şirvan şəhərində 5, 6 və 8 saylı ərazi vergi idarələrinin (ƏVİ), eləcə də Cəbrayıl, Laçın, Füzuli və Xocavənd rayonlarının vergi şöbələrinin hesabat dövründəki fəaliyyətinin müzakirəsinə həsr olunmuş zona müşavirəsi keçirilmişdir. Müşavirədə nazirliyin müvafiq idarə rəisləri və ərazi vergi orqanlarının rəhbər vəzifəli şəxsləri iştirak etmişlər.

Müşavirəni giriş nitqi ilə açan vergilər nazirinin müavini Sahir Məmmədxanov 2012-ci ilin birinci yarısının ölkəmiz, o cümlədən Vergilər Nazirliyi üçün uğurlu olduğunu bildirmişdir. Qeyd edilmişdir ki, hesabat dövründə respublikada qeyri-neft-qaz sektorunda ümumi daxili məhsul və adambaşına düşən gəlirlər artmış, Vergilər Nazirliyi tərəfindən proqnozlara 116% əməl olunmuşdur. «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» hesabat dövründə uğurla icra edilmiş, bölgələrə qoyulan investisiyaların həcminin artması modern standartlara cavab verən müasir infrastrukturun yaradılması, yeni istehsal müəssisələrinin açılması ərazi vergi idarələri üzrə büdcə daxilolmalarının artım dinamikasına müsbət təsirini göstərmişdir. Müşavirədə dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət orqanları qarşısında qoyulmuş vəzifələrin icrası ilə əlaqədar vergi orqanlarının işinin daha da gücləndirilməsinin vacibliyi vurğulanmışdır.

5 saylı Ərazi Vergilər İdarəsinin rəisi Ərəb Aslanov məruzəsində bildirmişdir ki, hesabat dövründə idarə üzrə dövlət büdcəsinə 18,8 milyon manat proqnoza qarşı 22,4 milyon manat vəsait daxil olmuşdur. Bu, proqnozun 119,1% icrası olmaqla yanaşı, ötən ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 2,0 milyon manat çox vəsaitin səfərbər edilməsi deməkdir. Məruzəçi idarə üzrə kameral vergi hesablamaları, dövlət satınalmaları üzrə vergi nəzarətinin təşkili, eləcə də vergi borclarının azaldılması istiqamətində görülən işlər, həmçinin ayrı-ayrı fəaliyyət sahələri üzrə vergi ödənişlərinin və həmin sahələrə nəzarət işinin nəticələri barədə ətraflı məlumat vermişdir.

6 saylı Ərazi Vergilər İdarəsinin rəisi Xosrov Ələsgərov 2012-ci ilin ilk altı ayı ərzində idarə üzrə dövlət büdcəsinə 20,4 milyon manat proqnoza qarşı 23,1 milyon manat vəsait daxil olduğunu, proqnoza 113,3% əməl edildiyini bildirmiş, funksional sahələr üzrə geniş məlumat vermişdir. Qeyd olunmuşdur ki, proqnoz tapşırıqlarının icrası ilə yanaşı, idarəyə daxil olan rayonlar üzrə də proqnoz tam icra edilmiş, 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə artıma nail olunmuşdur.

Müşavirədə çıxışlar ətrafında müzakirələr aparılmış, ərazi vergi orqanlarının funksional sahələri üzrə yol verilmiş nöqsanlarla əlaqədar müvafiq şöbə (bölmə) rəislərinin çıxışları dinlənilmiş, tapşırıqlar verilmişdir.

Müzakirələrdən sonra nazir müavini Sahir Məmmədxanov növbəti altı ayda proqnoz tapşırıqlarının icrası məqsədi ilə təxirəsalınmaz tədbirlərin görülməsi; kameral vergi yoxlamalarının keyfiyyətinin artırılması; dövlət satınalmaları üzrə alınmış tender məlumatları barədə göstəricilərin ciddi araşdırılaraq təhlili; qeydiyyata alınan və fəaliyyətini dayandıran vergi ödəyicilərinin dinamikasının ciddi araşdırılması; qanunsuz sahibkarlığa qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tövsiyə və tapşırıqlarını vermişdir. Vergi orqanlarına vətəndaşların müraciətlərinin ciddi araşdırılması, şikayətlərə qanunamüvafiq qaydada baxılması tapşırılmışdır. Qaçqın rayonların şöbə rəislərinin çıxışlarını dinləyən nazir müavini onların iş şəraiti, maddi-texniki bazaları ilə maraqlanmış, nazirliyin müvafiq idarələrinə göstərişlər vermişdir.

Vergi orqanlarının 2012-ci ilin birinci yarısı üzrə fəaliyyətlərinin müzakirəsinin davamı olaraq, avqustun 1-də Vergilər Nazirliyində bir sıra ərazi vergilər idarələrinin 2012-ci ilin birinci yarısı üzrə fəaliyyətinin müzakirəsinə həsr olunmuş daha bir iclas keçirilmişdir. İclasda nazirliyin müvafiq idarə rəisləri, 11, 12, 14 saylı ərazi vergilər idarələrinin, eləcə də Xocalı, Ağdam və Kəlbəcər rayonlarının vergi şöbələrinin rəhbər vəzifəli şəxsləri iştirak etmişlər.

Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov giriş nitqində qeyd etmişdir ki, yanvar-iyun aylarında dövlət büdcəsinə ötən ilin eyni dövrü ilə müqayisədə 405,0 milyon manat, bu ilin altı aylıq

proqnoz göstəriciləri ilə müqayisədə 410 milyon manatdan çox vəsait səfərbər edilmişdir. Qeyri-neft-qaz sektoru üzrə dövlət büdcəsinə 1 milyard 631,6 milyon manat, proqnoz göstəricisindən 103,8 milyon manat çox vəsaitin daxil olması təmin edilmişdir.

Bildirilmişdir ki, Şamaxı və Qax rayonları istisna olmaqla (4 və 13 saylı ərazi vergilər idarələri), respublikanın digər şəhər və rayonları üzrə proqnoz göstəriciləri 100%-dən çox yerinə yetirilmişdir. Hesabat dövründə ərazi vergilər idarələri tərəfindən ötən ilin müvafiq dövrü ilə müqayisədə 30 milyon manata yaxın vəsait toplanılaraq büdcəyə səfərbər edilmişdir. Ərazi vergilər idarələri üzrə proqnoz tapşırıqlarının icra edilməsinə baxmayaraq, hələ də vergi orqanlarının fəaliyyətində müəyyən sahələrdə nöqsanların olduğunu vurğulayan nazir müavini iclasın yekunu olaraq nöqsana yol vermiş əməkdaşlar barəsində müvafiq tədbirlərin görüləcəyini bildirmişdir.

12 saylı Ərazi Vergilər İdarəsinin rəisi Şahin Eyyubov məruzəsində 2012-ci ilin ilk 6 ayı üçün müəyyən edilmiş 18,9 milyon manat proqnoz-tapşırığa qarşı büdcəyə 20,2 milyon manat vəsaitin səfərbər olunduğunu, yarımillik proqnoz tapşırığının 106,7% icra edildiyini bildirmişdir. Hesabat dövründə dövlət büdcəsinə keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 milyon manat, yaxud 16,3% çox vəsait ödənilmişdir. İdarənin əhatə dairəsinə aid bütün şəhər və rayonlar üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarının icrasına nail olunmuş, gəlir vergisi istisna olmaqla, digər tədiyyələr üzrə müəyyənləşdirilmiş proqnoz-tapşırıqlar yerinə yetirilmişdir. Daha sonra məruzəçi funksional sahələr üzrə də ətraflı məlumat vermişdir.

14 saylı Ərazi Vergilər İdarəsinin rəisi Fəxrəddin Əliyev bildirmişdir ki, 2012-ci ilin birinci yarısında 13,1 milyon manat proqnoza qarşı dövlət büdcəsinə 15,0 milyon manat vəsaitin daxil olması təmin edilmiş, proqnoz-tapşırığa 113,9% əməl olunmuşdur. Hesabat dövründə idarə üzrə büdcəyə ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 milyon manat çox vəsaitin ödənilməsi təmin edilmişdir. 14 saylı ƏVİ-nin əhatə dairəsinə daxil olan rayonlar üzrə müəyyən edilmiş proqnozun icrası təmin olunmuşdur. Daha sonra məruzəçi artıq ödəmələr, AVİS-dənkənar və real vergi yoxlamaları, eləcə də funksional sahələr üzrə ətraflı məlumat vermişdir.

Çıxışlarla eləcə də vergi orqanlarının funksional sahələri üzrə yol verilmiş nöqsanlarla əlaqədar müvafiq şöbə (bölmə) rəislərinin fikirləri dinlənilmiş və müzakirələr aparılmışdır.

Müzakirələrdən sonra iclasa yekun vuran nazir müavini Sahir Məmmədxanov ərazi vergilər idarələrinin və şöbələrinin rəhbərlərinə verilmiş tapşırıqların icrasına bundan sonrakı mərhələdə daha səy və məsuliyyətlə yanaşmağı, proqnoz göstəricilərinin müsbət nəticələri ilə kifayətlənməməyi tövsiyə etmiş, müvafiq tapşırıqlarını vermişdir. Bildirilmişdir ki, iqtisadi həyatın ən müxtəlif sahələri üzrə vergi nəzarəti təmin olunmalı, riskli vergi ödəyicilərinin əhatə dairəsi dəqiq müəyyənləşdirilməli, işəgötürənlər tərəfindən işçi sayının rəsmiləşdirilməməsi və vergidənyayınma hallarına qarşı mübarizə tədbirləri daimi diqqət mərkəzində saxlanılmalıdır. Satınalmalar üzərində vergi nəzarətinin gücləndirilməsi də ərazi vergilər idarələri qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir.

İclasda digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

Samir MUSTAFAYEV